# AZƏRBAYCAN DİLİ
## Qapalı (çoxseçimli) test tapşırıqları

**1.** Hansı sözə *-la²* artırdıqda səs və hərflərin sayı bərabər olar?
1. təəssüf 2. qələm 3. təbəssüm
4. təmkin 5. müəllim 6. qalibiyyət
A) 2, 4, 6
B) 1, 3, 5
C) 1, 5, 6
D) 2, 3, 4, 5
E) 1, 3, 5, 6

**2.** Tərkibində xüsusi isim olmayan cümlənin ortasında bir ifadənin ilk hərfi böyük yazılıb. Bunun səbəbi nədir?
A) həmin ifadənin mürəkkəb ad olması
B) həmin ifadənin adlıq halda olması
C) vasitəsiz nitqin müəllifin sözündən sonra işlənməsi
D) mübtədanın cümlənin ortasında işlənməsi
E) mübtədanın *kim?* sualına cavab verməsi

**3.** Altından xətt çəkilmiş sözlər əsasında Venn diaqramında yol verilmiş ***səhvləri*** müəyyən edin.

Kim çalışqandırsa, o qalib gələcək. Biz uğur qazandıq, çünki birlikdə çalışdıq.




A) 1, 3, 4 B) 2, 3, 5 C) 1, 2, 4 D) 4, 5 E) 1, 5

**4.** Uyğunluğu müəyyən edin.
1. Heç nə bilməyən heç nəyə şübhə etmir. (R.Kotqreyv)
2. Yaxşı müəllim tapmaq çətindir, yaxşı şagird tapmaq isə ondan da çətindir. (Sun-Sutan)
a. Tərkibində təsirlik halda olan əvəzlik işləmişdir.
b. Tərkibindəki feillərin hamısı təsriflənəndir.
c. Qrammatik əsasının sayı ikidən çoxdur.
d. Xəbərləri eyni nitq hissəsi ilə ifadə olunub.
e. Yanaşma əlaqəsindən də istifadə olunub.
A) 1-a,b; 2-c, d B) 1-d; 2-c, e C) 1-b, e; 2-d D) 1-a, d; 2-b, e E) 1-a; 2-d, e

**5.** Hansı cümlələrdə * işarəsinin yerinə vergül qoyulmalıdır?
1. Bu * da bəllidir ki, hər nəticənin bir səbəbi var.
2. Müəllim bir şama bənzər: o * özünü əridərək başqalarının yolunu işıqlandırır.
3. O * etibarlı insan olduğundan hamının inamını qazanıb.
4. Əlbəttə, bu * indi təxirəsalınmaz məsələ hesab olunur.
5. Xəyal gerçəkliyin qüdrətidir, o * hər şeyi canlandıra bilər.
6. Bu cür məsələlərə o * dəfələrlə münasibət bildirmişdir.

A) 3, 4, 6 B) 1, 2, 5 C) 1, 5, 6 D) 2, 3, 4 E) 1, 2, 3

**6.** Hansı sözlər birləşdirilsə, defislə yazılan mürəkkəb zərflər alınar:

| | | | |
|---|---|---|---|
| 1. axşam | 2. üstü | 3. çağı | 4. səhər |
| 5. birdən | 6. birə | 7. beş | 8. dəfə |

A) 1+4; 5+6; 6+7
B) 4+3; 5+6; 7+8
C) 1+3; 2+3; 7+8
D) 1+2; 1+3; 6+7
E) 3+4; 4+5; 5+6

**7.** Nöqtələrin yerinə əlavə edilə bilən hansı söz ancaq qrammatik mənaya malik olur?
Səfər zamanı .... maraqlı insanlarla tanış olduq.
A) üçün
B) dünən
C) təsadüfən
D) gözlənilmədən
E) həm də

**8.** Verilmiş cümlələrin bir mürəkkəb cümlə daxilindəki düzgün ardıcıllığını müəyyən edin.
1. çünki bütün pisliklərin təməlində cahillik yatır
2. dünyaya gəlməmək yaxşıdır
3. nadan kimi yaşamaqdansa
4. korazehinlik gizlənir
A) 3, 2, 4, 1
B) 2, 1, 3, 4
C) 2, 1, 4, 3
D) 3, 1, 4, 2
E) 3, 2, 1, 4

**9.** Hansı nümunədə ədəbi dilin qrammatik norması ***pozulub***?
A) Səhər idmanla məşğul olanda həmin gün yorulmuram.
B) Kəndə gedənlər sabah qayıdacaqlar.
C) Həyat insanlıq üçün bir dərsdir.
D) Keçmişi öyrənmək gələcəyi görmək üçündür.
E) Dostumuz doğma yurdda ehtiramla qarşılandılar.

**10.** Antonimlərdən istifadə ***edilməyən*** cümlə hansıdır?
A) Gizli nifrət açıq danışıqdan təhlükəlidir.
B) İşıqlı otaqdan çıxıb zülmətə düşəndə görmə məhdudlaşır.
C) Əvvəl qonağın ruzisi, sonra özü gəlir.
D) Həqiqət bir daş qədər bərk, bir qönçə qədər yumşaqdır.
E) Bir binanı qurmaq üçün on il, yıxmaq üçün isə bir saat kifayətdir.

***Mətni diqqətlə oxuyun və 1-10-cu tapşırıqları mətn əsasında cavablandırın.***

## Qartal

***(ixtisarla)***

**I** Ovçu boz qayaya daldalanıb pusquda durmuşdu. Qıyılmış gözlərini göyə dikərək hikkəsindən *dişi bağırsağını kəsirdi*[1]. **O, qartalı axtarırdı.** Qartalsa hüdudsuz səmaları yarır, buludların arasında süzürdü. **Ovçunun gözləri işıqsız**, səma geniş, qartalsa güclü idi.

**II** Ovçu qəzəbdən, acizliyindən *yanırdı*[2]. Qartalı gizlədən buludlara, sıldırım qayalara nifrət edirdi.

**III** Çoxdandır, təbiətdə hökmran bir şöhrət qazanmaq arzusu ilə yaşayırdı. Çiynində tüfəng, ayağında öldürdüyü pələngin dərisindən çəkmə, özündənrazı görkəmlə təbiətdə məğlubedilməzliyini göstərmək istəyirdi. Lakin tüfəngini şikarına *tuşlayan*[3] kimi şikarı qaçırdı. **Bunu edən qartal idi.** Ovçu tüfəngini körpə ceyrana, kəkliyə tuşlayanda qartal *şığıyır*[4], ovunu qaçırırdı.

**IV** Qartala kin-küdurəti o qədər idi ki, indi tüfəngini bir addımlıqda qabağına çıxan turaca, kəkliyə tuşlamır, yalnız qartalı axtarırdı.

**V** Bir neçə gün qabaq, nəhayət, ovçunun güllələri qartalı yaralamışdı. Lakin təbiət qartala *kömək əlini uzatmışdı*[5]: yağış yuvasına su, küləklər sərinlik gətirmişdi. Qartal qanadlarında mətanət hiss etmiş, sabahı gün məğrur görkəmlə ağla gəlməyən hündürlüklərə qalxmışdı...

Ovçu indi **təbiətin üsyanından qorxurdu**, bütün təbiətə məlum idi ki, qartalı yaralayan ovçudur. Boz qayaya daldalanıb saatlarla qartalın pusqusunda durur, münasib məqam axtarırdı.

**Mübarizə davam edirdi...**

Ah, zalım qocalıq. Qartal qanadlarının vaxtından tez sarsılmasına necə qıydın?

<u>Qartal günbəgün, saatbasaat çəkisini azaldırdı.</u> Ovçuya sanki yeri-göyü vermişdilər. Qartal artıq hər gün yuvasından uçmadı, buludlar arasında süzmədi. Ovçu sevindi, toy-bayram etdi.

Vaxt gəldi, qartal tamam taqətdən düşdü. Ovçu qartalın son gününü gözlədi. Qartal saralmış gözlərini açıb ətrafa baxdı: təbiət gözəl idi. Havaya qalxmaq istədi, qanadları tərpənmədi. Bu an ovçunun addım səslərini eşitdi. Ovçu qartalın belə ölümünü görməməli idi...

Qartal qıy vurub birdən göyə qalxdı. Sanki təbiət bunu gözləyir, qartalın belə ölümünü istəyirdi. Ovçu sarsıldı, gözlərinə inanmadı. Göydə hündürlükləri fəth edə-edə uçan qartala baxa-baxa qaçmağa başladı. Qartal uçdu, ovçu qaçdı.

Birdən qartal səmtini dəyişib uzaqdakı dik qayaya tərəf uçmağa başladı. Ora çatıb ağır daş kimi qayanın zirvəsinə düşdü. Qanadları [gərildi], son dəfə təbiətə baxıb gözlərini yumdu.

Ovçu zirvəsi görünməyən qayaya baxdı. Ora insan qalxa bilməzdi. Ovçunun dizləri büküldü, üzüqoylu torpağın üstünə sərildi. Qartalın ölüsünə də ovçunun əli çatmadı...

*(Yusif Səmədoğlu)*

**1.** Hansı deyimi mətnə aid əsas fikir kimi götürmək olar?
A) Axmaq görünməyə cəsarət etmək böyük bir ağıllılıqdır. (Andre Gide)
B) Acı çəkmək ölməkdən daha çox cəsarət istəyir. (Napaleon Bonopart)
C) Doğru olan şeyi görmək, lakin bunu etməmək cəsarətsizlikdir. (Konfutsi)
D) Ümidsizlik qorxudan pişiyin itə hücum etməsi kimi insanı cəsarətləndirir. (Solomon)
E) Keçmişi xatırlayınca bəzən çox cəsarət göstərməyimə deyil, təhlükəni gözə almamış olduğuma təəssüflənirəm. (E.Boven)

**2.** Tünd-qara hərflərlə verilmiş hansı ifadələrə əsasən mətnin bədii üslubda olduğunu müəyyən etmək olar?
1. O, qartalı axtarırdı.
2. Ovçunun gözləri işıqsız...
3. Bunu edən qartal idi.
4. təbiətin üsyanından qorxurdu
5. Mübarizə davam edirdi...

A) 2, 4 B) 1, 3 C) 3, 5 D) 1, 2 E) 4, 5

**3.** Mətnin tərkib hissələrinə aid uyğunluğu müəyyən edin.
1. Giriş
2. Əsas hissə
3. Nəticə
a. Hökmranlıq arzusu
b. Şərəfli ölüm
c. Təbiətin təəssübkeşliyi
d. Ovçunun mübarizəsinin sonu
e. Qartalın gücü

A) 1-b,c; 2-a; 3-d,e C) 1-a,e; 2-b,c; 3-d E) 1-d; 2-b,e; 3-a,c
B) 1-e; 2-a,b,c; 3-d D) 1-c,d; 2-e; 3-a,b

**4.** Verilmiş sitatla nömrələnmiş hansı abzasdakı fikri qüvvətləndirmək olar?

*Təbiətə qarşı zor işlətmək lazım deyil, əksinə, ona tabe olmaqla yanaşı, arzularınız üçün təbiətdən istifadə zamanı bütün bəd əməlləri qəddarcasına dəf etmək lazımdır. (Epikür)*

A) I B) II C) III D) IV E) V

**5.** Üzərində rəqəm yazılmış sözlərə əsasən doğru şərhi müəyyən edin.
1. Məcazi mənadadır; hirslənmək, qəzəblənmək deməkdir.
2. Məcazi mənadadır; çox dərd və qəm çəkmək, hicran çəkmək deməkdir.
3. Həqiqi mənadadır; vurmaq, güllə atmaq deməkdir.
4. Həqiqi mənadadır; çox böyük sürətlə enərək hədəfə hücum etmək, üzərinə atılmaq deməkdir.
5. Məcazi mənadadır; yardım etmək deməkdir.

A) 1, 3 B) 1, 2, 5 C) 2, 4 D) 1, 4, 5 E) 2, 3

**6.** Cədvəl əsasında mətndəki səbəb-nəticə əlaqəsini müəyyən edin.

| ***Səbəb*** | ***Nəticə*** |
|---|---|
| Qartalın ovçunun onun ölümünü görməyini istəməməsi | |
| | Ovçunun təbiətdə gördüyü heyvanları, quşları ovlamaq istəməsi |

**7.** Altından xətt çəkilmiş cümləni bədii üslubun xüsusiyyətlərinə uyğun olaraq təkmilləşdirməklə yenidən yazın.

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
___

**8.** Cədvələ əsasən mətndə çərçivə daxilində verilmiş sözün kontekstə uyğun mənasını şərh edin.

| ***Sözün kontestə uyğun mənası*** | ***Sözün mətndəki mənasına uyğun digər cümlədə işlədilməsi*** |
| --- | --- |
| | |

**9.** III abzasın sonuna uyğun gələn elə cümlə yazın ki, mətnin hissələri arasında əlaqə pozulmasın.

**10.** Həyat hadisələrindən nümunələr gətirməklə "*İnsanın təbiətə vurduğu zərər müqabilində təbiət ondan qisas alır"* fikrini əsaslandırın.

***Mətni diqqətlə oxuyun və 11-20-ci tapşırıqları mətn əsasında cavablandırın.***

**Qalileo Qaliley**

Müasir elmin yaranmasında Qalileo qədər rolu olan ikinci şəxs təsəvvür etmək çətindir. Qalileo rəqqasın periodunun amplitud və kütlədən asılı olmadığını müəyyən etmişdir. Onun katolik kilsəsi ilə yaşadığı mübarizə çox məşhurdur.

Qalileo dünyanın *quruluşunu*[1] anlaya biləcəyimizə inanan və bunu real dünyanı müşahidə etməklə həyata keçirməli olduğumuzu düşünən ilk insanlardan idi. Qalileo Kopernikin nəzəriyyəsinə, yəni planetlərin Günəşin ətrafında fırlanmasına inanmışdı, ancaq bu ideyanı təsdiqləyən dəlillər tapdıqdan sonra açıq-aydın dəstəkləməyə başladı. O, Kopernikin nəzəriyyəsi haqqında əsərlər yazdı və onun fikirləri geniş şəkildə yayıldı. Bundan məmnun olmayan Aristotelçi professorlar katolik kilsəsinin Kopernikin düşüncələrini qadağan etməsi üçün fəaliyyətə başladılar. Qalileo kilsə səlahiyyətliləri ilə görüşmək üçün Romaya getdi. Bibliyanın məqsədinin elmi nəzəriyyələr haqqında fikir bildirmək olmadığını, *sağlam*[2] fikirlə *toqquşduğu*[3] sahələrdə Bibliyanın alleqorik oxunmalı olduğunu müdafiə etdi.

Ancaq özünə zərər verəcək münaqişədən *qorxan*[4] kilsə təzyiq metodunu seçdi. 1616-cı ildə Kopernikin fikirlərini "səhv və xətalı" hesab edərək Qalileoya bu düşüncələri əsla "müdafiə etməməyi və dəstəkləməməyi" əmr etdi.

1623-cü ildə Qalileonun dostlarından biri Papa seçildi. Qalileo 1616-cı il fərmanının ləğv edilməsi üçün müraciət etdi. Fərman ləğv edilmədi, lakin o, Aristotel və Kopernikin fikirlərini müqayisə edən kitab yazmağa icazə ala bildi. İki şərt vardı: tərəf tutmayacaqdı və insanın dünyanın nizamını anlaya bilməyəcəyi nəticəsinə gələcəkdi. Çünki kilsə dünyagörüşünə görə, dünyanın nizamı mütləq gücə malik olan tanrı tərəfindən elə yaradılmışdır ki, bunu insan xəyal belə edə bilməz.

"İki əsas dünyagörüşü arasında dialoq" adlanan kitab senzuranın icazəsi ilə nəşr olunanandan bütün Avropada ədəbi və fəlsəfi mövzuda şah əsər olaraq qarşılandı. Papa insanların bu kitabı Kopernik sistemi lehinə arqument kimi gördüklərinin fərqinə vardı, nəşrinə icazə verdiyi üçün peşman oldu. İnkvizisiya məhkəməsi Qalileyi *ömürlük*[5] ev həbsinə və Kopernik düşüncələrini ictimaiyyət qarşısında inkar etməyə məhkum etdi. O, ikinci dəfə boyun əydi. Ölümündən 4 il əvvəl hələ ev həbsində ikən ikinci böyük kitabının əlyazması ölkədən gizlicə çıxarılaraq Hollandiyada bir naşirə çatdırıldı. "İki yeni elm" adlı bu kitab Kopernik sisteminə dəstək olmaqla bərabər, böyük təsirə səbəb oldu: müasir fizika anadan oldu.

*(Stiven Hokinq, Leonard Mlodinov, "Zamanın daha qısa tarixi", Bakı, 2016)*

**11.** III abzasın sonuna hansı cümlə artırılsa, mətnin tərkib hissələri arasında əlaqə pozulmaz?
A) Qalileo bu əmrə boyun əyməkdən imtina etdi.
B) Qalileo öz düşüncələri ilə insanlara təsir edirdi.
C) Kilsə onun haqlı olduğunu bilirdi.
D) Qalileo bu əmrə boyun əydi.
E) Qalileonun etirazı onun üçün faciə ilə nəticələndi.

**12.** Mətnə görə Qalileonun kilsə ilə qarşıdurma yaradan fəaliyyətinə aid edilə ***bilməz***:
1. 1616-cı il fərmanının ləğv edilməsi ilə bağlı müraciəti
2. Bibliyaya yanaşma haqqında fikirlərini izhar etməsi
3. Aristotel və Kopernikin fikirlərini müqayisə edən kitab yazması
4. Kopernikin fikirlərini dəstəkləməsi
5. Kopernikin fikirlərini izah edən əsər yazması

A) 1, 3 B) 2, 5 C) 1, 2 D) 3, 4 E) 4, 5

**13.** Qalileo planetlərin Günəş ətrafında fırlanması fikrini nə ilə təsdiq edə bilərdi?
A) gecə və gündüzün bir-birini əvəz etməsi faktı ilə
B) fəsillərin bir-birini əvəz etməsi faktı ilə
C) dəniz və okeanlarda qabarma hadisələri ilə
D) Yerin kürə şəklində olması faktı ilə
E) Yerin cazibə qüvvəsi faktı ilə

**14.** Çərçivədə verilmiş sözün kontekstə görə doğru şərhidir:
A) Sübutların əsasını təşkil edən məntiqi müddəalar, dəlillər, faktlar
B) Funksional asılılıqda sərbəst dəyişən kəmiyyət
C) İstənilən hadisə, yaxud fakt haqqında rəy, tənqidi qeyd, mühakimə
D) Çılpaq fakt kimi izahsız təqdim olunma
E) Həqiqətən olmuş hadisə

**15.** Üzərində rəqəm yazılmış hansı sözlər məcazi mənalıdır?
A) 1, 4 B) 2, 5 C) 1, 3 D) 4, 5 E) 2, 3

**16.** Sxemi mətndə altından xətt çəkilən fikir əsasında tamamlayın.

Qalileonun fikirləri
- doğrudur ☐
- yanlışdır ☐

Çünki________________________________________________
____________________________________________________
____________________________________________________
____________________________________________________
____________________________________________________
__________________________

**17**. Mətndə bədii üslubun xüsusiyyətlərinə uyğun işlədilmiş ən azı bir ifadəni müəyyən edib yazın.
____________________________________________________
____________________________________________________
__________

**18.** Mətnin II və III abzaslarının məzmununu xülasə şəklində ifadə edin.
____________________________________________________
____________________________________________________
____________________________________________________
_______________

**19.** Mətnə əsasən, klasteri tamamlayın.

Qalileo Qaliley
- Kopernikin nəzəriyyəsi haqqında əsərlər yazıb.
- ____________________________________
- ____________________________________

**20.** Mətnin üslubi xüsusiyyətlərinə uyğun olmayan, ağırlıq yaradan cümləni seçib yazın.
____________________________________________________
____________________________________________________
__________